DOI: 10.36719/AEM/2007-2019/47/105-107

**Xəyalə Cahangir qızı Məmmədova**
Sumqayıt şəhər 10№-li peşə liseyi

# AİLƏDƏ UŞAQLARA SEVGİ VƏ MƏHƏBBƏT

***Açar sözlər:*** *Uşaq, sevgi, tərbiyə*
***Key words:*** *Child, love, upbringing*
***Ключевые слова***: *Ребенок, любовь, воспитание*

Yetişən gənc nəslin düzgün tərbiyə olunması, mühüm pedaqoji problem olmaqla bərabər, həm də cəmiyyətin, dövlətin prioritet məsələlərindən biridir. Çünki cəmiyyətin inkişafı, onun parlaq gələcəyi bir çox cəhətdən yetişən nəslin tərbiyəsindən asılıdır.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin bütün həyatı və fəaliyyəti nəsillərə nümunə olmaqla yanaşı, ideal ailə başçısı kimi göstərdiyi örnək də misilsizdir. Onun ailə dəyərlərinə verdiyi qiymət həmişə hörmətlə xatırlanır və xatırlanacaqdır. Cəmiyyəti yaşadan və onun varlığını sübut edən ailə meyarlarına ulu öndərin öz münasibəti, öz yanaşması olmuşdur. Heydər Əliyev həm də öz ailəsinə göstərdiyi qayğı və diqqətlə seçilmiş, milli-mənəvi dəyərlərimizin qarantı kimi ailənin müqəddəsliyinə daim böyük önəm vermişdir. Ulu öndərimiz H.Ə.Əliyev ailə tərbiyəsi ilə əlaqədar deyirdi: "Ailə tərbiyəsi öz xarakterinə görə nadir bir haldır. Bu tərbiyə ata-ananın övlada məhəbbəti və uşaqların da ata-anaya bu cür hissləri kimi bir mənəvi əsas üzərində qurulur... Əgər ailə aləminə əxlaqsızlıq mikrobu daxil olmuşsa, əgər uşaq ailə vəsaitlərinin əyri yollarla əldə edildiyini görürsə, onun qəlbində iki cür əxlaq yarana bilər"(1).

Ümummilli lider Heydər Əliyev Azərbaycan uşaqlarını ən əzizi, doğması hesab edərək deyirdi: "Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən bu gün haqqında yox, Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi də Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır ".

Ümummilli lider Heydər Əliyevin ənənələrinə sadiq qalan, dahi şəxsiyyətin siyasi kursunu layiqincə həyata keçirən, ideyalarını yaşadan möhtərəm Prezidentimiz İlham Əliyev və Heydər Əliyev Fondu, şəxsən fondun prezidenti Azərbaycanın birinci xanımı Mehriban Əliyeva uşaqların xoşbəxt gələcəyi üçün bütün imkanlardan istifadə edir, bu sahəni daim diqqət mərkəzində saxlayırlar.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2006-cı il 29 mart tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (de-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramının (2006-2015-ci illər)" qəbul edilməsi böyük əhəmiyyətə malikdir. Bunun məntiqi davamı olaraq Heydər Əliyev Fondunun uşaqların müdafiəsi ilə əlaqədar həyata keçirdiyi silsilə, rəngarəng tədbirlər sırasında "Hər uşağın ailəyə ehtiyacı var" layihəsi ailənin və ailə tərbiyəsinin inkişafına böyük töhfədir.

Ulu öndərimiz Heydər Əliyev deyirdi ki, uşaqlar, gənclər bizim gələcəyimizdir (1). Bu baxımdan bu günkü uşaqlar gələcəyin layiqli vətəndaşı olmalıdırlar. Onlar bu gün dünənkindən, sabah isə bu günkündən daha ağıllı, daha bilikli və daha vətənpərvər olmalıdırlar. Vaxtilə böyük pedaqoq A.S.Makarenko deyirdi ki, düzgün tərbiyə bizim xoşbəxt gələcəyimizdir, pis tərbiyə bizim gələcək ağrılarımız, əzablarımız və göz yaşlarımızdır (2,122). Əgər biz ən azı bir nəslə düzgün tərbiyə və mükəmməl təhsil vermiş olsaq, gələcək nəsillərin ağıllı, mədəni, əxlaq və mənəviyyatlı insanlar kimi yetişəcəyinə əmin ola bilərik. Çünki düzgün tərbiyə almış bir şəxs bunu sonrakı nəslə ötürəcək. Beləliklə varislik əsasında düzgün, əxlaq və əqidəli nəslin tərbiyəsi meydana gələcəkdir. Deyə bilərik ki, uşaqların düzgün tərbiyəsi sağlam gələcəyimizin əsaslı təminatıdır.

Şəxsiyyətin əsasını qoyan cəmiyyətin ilkin struktur vahidi ailədir. Məhz ailədə ilk tərbiyə alınır və uşaqlar ilk sosial təcrübəyə yiyələnir, bir şəxsiyyət kimi formalaşırlar. Ailə ilk tərbiyə ocağı kimi böyüyən uşağın gələcək inkişafında, taleyində mühüm rol oynayır. Uşaq böyütmək, ərsəyə çatdırmaq hər bir valideynin qarşısında duran ən çətin, məsuliyyətli və eyni zamanda şərəfli bir işdir. İnsan nəslinin sağlam doğulub, boya – başa çatmasında və düzgün tərbiyəsində ailənin əsas xüsusi funksiyaları özünü büruzə verir.

Əlbəttə, pedaqoq alimlərin dedikləri kimi uşağın tərbiyəsi ilə hələ o dünyaya gəlməzdən əvvəl məşğul olunmalıdır. Övlad planlaşdırarkən artıq dünyaya gələcək insanın tərbiyə sistemi də yaranmış olur. Ana-atanın necə qidalanması, necə həyat tərzi keçirməsi davranışı gələcək insanın tərbiyəsinə təsir edəcəkdir.

ISSN 2663 - 4619 / Print

Məhəmməd peyğəmbər (s.ə) buyururdu ki, tərbiyə valideynin öz övladına verdiyi ən böyük hədiyyədir. Valideynlər həm uşaqla davranışlarında, həm bir-birləri ilə, həm də digər ailə üzvləri ilə, başqa insanlarla rəftarlarında gözəl əxlaq və mənəviyyat nümayiş etdirməlidirlər ki, bu da uşağın şüuraltı davranışına ömürlük həkk olunsun.

Uşaq dünyaya gəldiyi gündən valideynlərin üzərinə böyük bir yük, cavabdehlıк düşür. Onlar çalışmalıdırlar ki, körpənin qayğısına qalıb, onu sağlam böyüdüb, cəmiyyət üçün yararlı vətəndaş кimi yetişdirsinlər. Valideynlərin bir-biri ilə qarşılıqlı münasibəti uşaqlar üçün bir örnək, bir ölçü vahidi olmalıdır. Ata-ana uşaqlara müraciət edərkən xoş, mehriban, əzizləyici sözlərdən istifadə etməli, ailə də qarşılıqlı hörmət mövcuddursa, təbii ki, uşaqlarda da həm valideynlərinə, həm də ətrafındakı insanlara qarşı xoş münasibət formalaşacaq. Valideynlər arasında emosional münasibət nə qədər güclü olarsa və bir-birinin ehtiyaclarına nə qədər diqqət və həssaslıqla yanaşarlarsa bu artıq onlardan asılı olmadan belə uşaqların hər bir ehtiyacını birlikdə ödəmə, hər bir məsuliyyətini birlikdə daşıma, övladlarının yaxşı və pisini birlikdə dərk edib, paylaşmaqda onlara kömək edəcəkdir. Uşaq ən çox ana ilə ünsiyyətdə olduğu üçün onun rəftarlarını və danışıqlarını təkrar edir. Deməli, cəmiyyətdə mədəniyyətin böyük hissəsi ana əməyinin məhsuludur. Bir sözlə ana uşaq üzərindəki nüfuzu ilə onun formalaşmasında böyük rol oynayır. Xalqımızn belə bir deyimi vardır: "Dünyada atadan qüdrətli, anadan doğma, bacıdan mehriban, qardaşdan möhkəm arxa heç kəs ola bilməz". Ulu dastanımız "Kitabı Dədə Qorqud" da deyilir: "Qız anadan görməyincə öyüd almaz, Oğul atadan görməyincə süfrə çəkməz"(3,4). Uşaqların böyüməsində ola bilər ki, kimsə ata kimi hərəkət edə bil-sin, amma ananı əvəz etmək heç vaxt mümkün deyildir."Uşaq atadan yox, anadan yetim qalır".

Ailədə ata da uşağın tərbiyəsində ana qədər yaxından iştirak etməli, övladının düzgün yetişməsində anaya dəstək olmalıdır. Atanın övladını tərbiyə etməsi o dünyaya gəldikdən sonra başlayır. Ata öz oğlanlarında kişi qeyrəti, kişi dəyanəti, cəsurluq, mərdlik, alicənablıq, igidlik, çətinliklərə sinə gərə bilmək, müdafiə olunmaq kimi keyfiyyətlər tərbiyə etməlidir. Qızlara isə xüsusi qayğı, nəvaziş və hörmətlə yanaşıl-malı, şəxsiyyətləri, ləyaqətləri hər zaman uca tutulmalıdır. Ailədə bütün vacib məsələlərdə, xüsusən uşaq tərbiyəsi ilə bağlı hər iki valideynin sözü üst-üstə düşməlidir. Yəni ananın sözünü ata, atanın sözünü ana müdafiə etməli, vahid tələbkarlıq olmalıdır. Uşaqların nitqi, danışıq tərzi də valideynlərin davranışı ilə birbaşa bağlıdır. Əgər valideyn övladı ilə kobud danışırsa, uşaq da dostları ilə, ümumilikdə ətrafdakılarla söhbət edərkən belə danışıq tərzi nümayiş etdirəcək. Valideynlər öz davranışları, rəftarı ilə öz övladlarına nümunə olmalıdırlar. Məsələn, ata oğluna böyüklərə hörmət etməyi tövsiyə edirsə, amma, özü yaşlılarla hörmətsiz davranırsa, insanlara qarşı laqeyddirsə, onun övladına ədəb dərsi keçməsi mənasızdır.

Ailədə uşaqlara həddindən artıq çox sayda qoyulan qadağalar erkən yaşlarda onlarda kaprizlər, davranış pozuntuları yaranır və itaətsizliyə səbəb olur. Bəzən qadağaların sayı o qədər çox olur ki, uşaq onları başa düşüb yadda saxlaya bilmir. Qoyulan qadağalar əsaslı olmalı və valideyn qadağa qoyarkən onun səbəbini, mənfi xüsusiyyətlərini uşaqlara izah etməlidir. Valideynlər uşaqlara nə qədər sevgi ilə yanaşsalar, uşaqlar öz fikirlərini onlara daha açıq şəkildə deyər, valideynlərini özlərinə dost və sirdaş bilərlər. Valideynlər bəzən öz sözlərini uşaqlara hökmlə, qorxudaraq, hədə-qorxu ilə tətbiq etmək istəyirlər. Bu da gələcəkdə uşaqların psixologiyasında özünün mənfi fəsadlarını göstərəcəkdir. Uşağı təhdid etmək, ona yersiz halda qışqırmaq, günahlandırmaq kimi neqativ hallar yol verilməzdir. Bu uşaqların sinir sisteminə öz mənfi təsirini göstərəcəkdir. Uşaqlar sevildiklərini biləndə, hiss edəndə ki valideynləri onları necə böyük bir məhəbbətlə sevir , onda bunu gələcəkdə öz ailəsində də tətbiq edəcəkdir. Əks halda isə bu, ailədə başqa problemlərə, hətta faciəyə gətirib çıxara bilər.

Uşağı sevməklə bərabər, onların sevimli olmalarını da öyrətmək lazımdır. Daha sonra onlar da başqalarına sevgi və məhəbbət göstərəcəklər. İnsan əvvəlcə öz valideynlərinə sevgi göstərir, sonra həyat yoldaşına, sonra uşaqlara, daha sonra nəvələrə öz sevgi və məhəbbətini bildirir. Uşaqlara sevgi və qayğı göstərmək böyüklər üçün heç də çətin, mürəkkəb bir iş deyildir, əksinə bu çox asanlıqla başa gəlir. Bunu edən böyüklər özü də sevinir, fərəhlənir və özünü xoşbəxt hiss edir, onlar hər cür stressdən uzaq olmuş olurlar. Uşaqlar böyüklərə sevgi yaşatdıqca böyüklər xoşbəxt olurlar, böyüklərdə məşğulluq yaranır, onlara öz istəklərini necə yerinə yetirməyi öyrədir.

Valideynlə uşaq arasında o qədər güclü əlaqələr olmalıdır ki, onun sayəsində uşaq əmin olmalıdır ki, valideyn onun tərəfindədir və qəbul edilən qərarlar onun xeyrinədir. Həmçinin eyni zamanda valideyn özünü uşağın yerində hiss etməli, bu qadağaların ona necə təsir etdiyini bilməlidir. Ailədə uşaqlar məhəbbətlə idarə edilməlidir. Ən mühüm məsələ odur ki, uşaqlara böyük ehtiramla yanaşmaq və onlarla kobud rəftardan çəkinmək lazımdır. Prof. Rüfət Hüseynzadə "Ailə pedoqogikası" dərsliyində qeyd edir ki, kobud sözlər

**ISSN 2663 - 4619 / Print**

uşaqların xarakterini sərtləşdirir, ürəklərini yaralayır, çox vaxt bu yaraları sağaltmaq çətin olur və ya heç vaxt sağalmır (5,296).

Bir çin atalar sözündə deyilir: “Övladınız ovcunuzda tutduğunuz quş kimidir, bərk sıxsanız ölə bilər, boş buraxsanız uçub gedər.” Övladlarımızla dost olmalı, onlara bir şəxsiyyət kimi yanaşmalı, problemlərin həllində onların da fikirlərini soruşmalı, onlara dəyərli olduqlarını hiss etdirməli, vətənə, xalqına dəyərli övlad kimi yetişdirməliyik. Ailədə lazımi təlim- tərbiyə, öyüd-nəsihət görməyən uşaq asanlıqla ətraf mühitin mənfi təsirinə məruz qala bilər.Uşaqlar bizim gələcəyimizdir.Gələcəyimizin necə olması bu günkü uşaqlardan aslıdır.Ona görə də bu günkü uşaqlar dünənkindən daha yaxşı, hazırlıqlı və bilikli olmalıdırlar.

Ailə və ailədaxili münasibətlərin tənzimlənməsi, ailə pedoqogikası, ailə tərbiyəsi haqqında çoxlu tədqiqatlar aparılmış, maraqlı əsərlər, kitablar yazılmışdır.Yaxşı olardı ki, valideyn olmağa hazırlaşan gənclərimiz bu materiallarla tanış olub,sağlam bir ailə təməli qoysunlar.

## Ədəbiyyat:

1. Heydər Əliyev. Fəal həyat mövqeyinin formalaşması mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri. Bakı , 17-27 aprel, 1979/ Xalq, 30 aprel, 1979-cu il.
2. İlham Əliyev. “Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (de-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramın (2006-2015-ci illər). 2006-cı il 29 mart tarixli sərəncam/ Xalq, 30 mart, 2006-cı il.
3. Makarenko A.S. Seçilmiş əsərləri. Bakı: Maarif, 1983.
4. Kitabi Dədə Qorqud.Bakı: Yazıçı, 1988.
5. Uşaq Hüquqları Konvensiyası 20 noyabr, 1989-cu il BMT Baş Assambleyası tərəfindən təsdiq edilmişdir.
6. Hüseynzadə R.L. Ailə pedaqogikası. Dərslik. Bakı: Maarif, 2015.

## Love for children in the family

**Summary**

The child comes with love to the world, and from the very first day it feels the love of the mother and grows and develops with love. Such an atmosphere of love ensures that a child grows up as a normal, harmonious person and becomes a guarantor of future success. A loving child also loves people in the future, respects them, and is shaped like a positive person.

## Любовь к детям в семье

**Резюме**

Ребенок приходит с любовью к миру, и с самого первого дня он чувствует любовь матери, растет и развивается с любовью. Такая атмосфера любви гарантирует, что ребенок вырастет как нормальный, гармоничный человек и станет гарантом будущего успеха. Любящий ребенок также любит людей в будущем, уважает их и имеет форму позитивного человека.

**Rəyçi: prof. R.L.Hüseynzadə**